Ovqat

# Zəfərin mübarək, Azərbaycan əsgəri!

Ezamiyyətdə Vətən müharibəsində iştirak etmiş zabit və əsgərlərlə görüşüb söhbət etdik. Onların döyüş yollarını, erməni qəsbkarlarına qarşı hansı cəsarətlə vuruşduqlarını öyrəndik. Eşitdiklərimizdən də, vərəqlərə köçürdüklərimizdən də iftixar duyduq. Bu duyğu ovqatımızı xeyli yüksəltdi, ürəyimizi, qəlbimizi sevinc hissləri ilə doldurdu. Qələbə naminə vuruşan belə cəsur, qorxmaz əsgərlərlə xalqımız həmişə öyünəcək



Gizir Rəşid Tanrıverdiyev gərgin döyüşlərdən həvəslə söz açaraq dedi ki, torpaqlarımızın azadlığı uğrunda vuruşmaqdan qürur duyuram. "Hərbçi kimi bu, mənim ən müqəddəs borcumdur. Biz bu borcu böyük şərəflə, böyük ləyaqətlə yerinə yetiririk. Əks-hücum əməliyyatının ilk günlərindən döyüşə qələbə əzmi ilə atıldıq. Bu əzmlə də döyüşlərimizi davam etdirdik. Döyüşlərin ilk günlərində uzun illər erməni işğalında qalan kəndlərimizin bir neçəsini azad etdik. Yaşayış məntəqələri uğrunda gedən döyüşlərdə əsgərlərimiz cəsarətlə vuruşurdular. Hiss olunurdu ki, hərbçilərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Mən özüm də dəqiq atəş zərbələri ilə bir neçə qəsbkarı öldürdüm. Vaxt keçdikcə yağıların sıralarının seyrəldiyi açıq-aydın hiss olunurdu. Elə buna görə də düşmən əks-hücumumuz qarşısında dayana bilmirdi. Bu müddət ərzində dəqiq atəş zərbələri ilə yağıların bir neçə zirehli texnikasını və xeyli canlı qüvvəsini məhv etdik. Ağır itkilər verən düşmən qaçmağa başladı. Azad olunandan sonra ehtiyatla kəndlərdən birinə girdik. Burada gördüklərimizdən dəhşətə gəldik. Yer-göy erməni zülmündən qan ağlayırdı. Yaşayış məntəqəsindəki bütün evlər uçurulub dağıdılmışdı, yerlə-yeksan edilmişdi. Yarlı-yaraşıqlı evlərdən yalnız bünövrə və yarıya qədər uçurulmuş divarlar qalmışdı. Bu yaşıma qədər belə dəhşətli səhnə görməmişdim. Amma illərlə əvvəl bu yerlər axarlı-baxarlı olmuşdu. Xalqımızın övladları əsrlər boyu bu kəndlərdə yaşayıb ömür sürmüşdülər, qurub-yaratmışdılar. Yağılar kənddə yalnız özlərinin qaldıqları bir neçə evi uçurmamışdılar. Bütün gördüyümüz bu dəhşətli mənzərə ermənilərə olan nifrətimizi daha da artırdı. Artıq bu kəndlər qəsbkarlardan azad olunmuşdu. Diqqətlə baxanda torpağın da üzünün güldüyünü hiss edirdik. Yəqin ki, bir müddətdən sonra bu yaşayış məntəqələrinin sakinləri doğma ocaqlarına dönəcəklər. Erməni qəsbkarlarının uçurub dağıtdıqları evlərini təzədən tikəcəklər, yenidən yaradacaqlar. Kənddə həyat 28 il əvvəlki axarına düşəcək. İnsanlar ata-baba yurdlarında şad-xürrəm ömür sürəcəklər. Bu səadəti onlara bəxş etdiyimizə görə qürur duyuruq".

Döyüşdən yenicə qayıtmış əsgər Mübariz Yaralıyevin də ovqatı yüksək idi. Əsgərin cəsurluğu sözündən bilinir, hərəkətindən görünür. Üz-gözündən igidlik yağan Mübariz Yaralıyev də qalib əsgərdir. Onu dinləmək bizə könül xoşluğu gətirdi:

- Kiçik yaşlarımdan yurdumuzu işğal etmiş, Xocalıda xalqımıza qarşı soyqırımı törətmiş ermənilərə qarşı nifrətlə, qəzəblə böyümüşəm. Bu qanlı hadisələr baş verəndə yaşım az idi. Böyüdükcə əsrlər boyu xalqımıza qənim kəsilmiş erməniləri tanıdıq, onların qanlı əməllərini daha dərindən öyrəndik. Öyrəndikcə düşmənə nifrətimiz artdı. Orta məktəbdə oxuyanda müəllimlərimiz dəfələrlə bizi torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanına ziyarətə gətirirdilər. Şəhidlərimizin qanı yerdə qala bilməzdi, bu qisas alınmalıydı. Çünki onların ruhları qisasları alınandan sonra rahatlıq tapacaqdı. Döyüşdə düşməndən şəhidlərimizin intiqamını aldıq. Elə ilk əks-hücum əməliyyatı zamanı erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurduq. Düşmən mövqelərimiz üzərinə hücum çəkəndə elə zənn etdi ki, biz qorxub geri çəkiləcəyik. Qəsbkarlar bilmirdilər ki, qorxu hissi Azərbaycan əsgərinə çoxdan yaddır. Yağılara intiqam və qisas hissi ilə döyünən ürəkdə qorxu hissi ola bilməz. Qəsbkarların atəşinə atəşlə də cavab verirdik. Gərgin döyüş xeyli davam etsə də, işğalçılar bir addım olsun belə irəliləyə bilmirdilər. Komandirlərim, əsgər dostlarım güllələri işğalçıların üzərinə dolu kimi yağdırırdılar. Hazırlığımız yüksək olduğuna görə güllələrimiz hədəfdən yayınmırdı. Mövqelərimizdə möhkəm dayanmışdıq. Məqsədimiz qısa müddət ərzində yağıların hücumlarının qarşısını almaq idi. Nəyin bahasına olursa-olsun, üstümüzə hücum çəkmiş erməniləri dayandırmalıydıq. Yaranmış şəraitə uyğun olaraq komandirlərimiz bizə əmrlər, göstərişlər verirdilər. Bizim üçün nə qədər çətin və təhlükəli olsa da, döyüş əmrlərini yerinə yetirirdik. Əməliyyat davam etdikcə qəsbkarların yavaş-yavaş zəiflədiyi hiss olunurdu. Atəş zərbələrimiz sərrast olduğundan düşmən həm canlı, həm də zirehli texnika sarıdan itkilər verirdi. İşğalçılardan üstün olduğumuz açıq-aydın görünürdü. Deməli, qəsbkarları yurdumuzdan qovub, torpaqlarımızı azad edə bilərdik. Bir azdan komandirimiz yağıların üzərinə əks-hücuma keçmək barədə əmr verdi. Atəş aça-aça düşmən üzərinə yeridik. Qəsbkarlar əvvəlcə geri çəkilmək istəmirdilər. Amma iki-üç dəqiqə keçməmiş hücumlarımızın gücündən tələm-tələsik mövqelərini tərk edib qaçmağa başladılar. Onları 28 il dayanıb möhkəmləndikləri yerlərindən bir döyüşlə vurub çıxardıq. Erməni işğalçıları silah-sursatlarını, meyitlərini mövqelərində atıb qaçdılar. Postlarına baxanda çox heyrətləndik - burada güclü möhkəmləndirmə işləri aparılmışdı. Düşmən zənn edirmiş ki, bununla Azərbaycan əsgərinin qarşısını ala biləcək. Amma nə qədər bərkitmə işləri aparsa da, yağılar qarşımızda duruş gətirə bilmədilər. Biz qələbə qazandıq.

Əsgər Mübariz Yaralıyev daha sonra bildirdi ki, Azərbaycan Ordusunun uğurlu döyüşləri davam etdi, qələbə qazanıldı. Zəfər zəfər arxasınca, uğur uğur dalınca gəldi, qələbə qazanıldı, torpaqlarımızı yağılardan təmizlədik. Döyüşlərdə iştirak etdiyimə görə çox xoşbəxtəm. Müzəffər Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərdilər. Döyüşlərdə qəsbkarlar yüzlərlə zirehli texnikalarını, canlı qüvvələrini itirdilər. Döyüşlər qələbəmizlə başa çatdı. Artıq bu gün üçrəngli bayrağımız Şuşada dalğalanır.

Düşməni məhv etdiyi silahını sinəsinə sıxmış gizir Rəşad Əlyarov da yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə öndə vuruşub. Sərrast atəşlə neçə-neçə düşmən məhv edib. Döyüşlərdən zəfərlə, uğurla dönüb. Gizir Rəşad Əlyarov qeyd etdi ki, illərdən bəri özünü qalib hiss edib torpaqlarımızı işğalda saxlayan erməniləri məğlubiyyətə uğratdıq. Azərbaycan əsgəri, sözün həqiqi mənasında, onlara qan uddurdu. Hər gün irəli gedirdik, hər gün torpaqlarımızı azad edirdik. Azərbaycan Ordusu bütün cəbhə boyu erməni işğalçılarına sarsıdıcı zərbələr vurdu. Fəxr edirəm ki, mən qalib bir ordunun qalib əsgəri kimi bu tarixi döyüşlərdə iştirak etdim. Biz öz torpaqlarımızın azadlığı uğrunda vuruşurduq, biz uzun illər ermənilər tərəfindən pozulan, tapdanan haqq-ədalət uğrunda vuruşurduq. Ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində çox haqlı olaraq demişdir: "...Biz öz torpaqlarımızda vuruşuruq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik, işğalçıları öz torpaqlarımızdan qovmalıyıq, ölkəmizin suverenliyini təmin etməliyik. Əminəm ki, biz buna nail olacağıq." Biz hərbçilər Ali Baş Komandanın döyüş əmrini yerinə yetirərək erməni qəsbkarlarını məhv etdik, onları ağır məğlubiyyətlərə uğratdıq. Düşmən müqavimət göstərməyə çalışsa da, buna gücü çatmadı. Vətənimizin bütövlüyü uğrunda gedən döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı. Erməni işğalçıları məhvə məhkum idi, çünki tarix boyu heç vaxt özlərinin olmayan Qarabağa sahib çıxmaq istəyirdilər. Arzuları özlərindən böyük idi. Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşlərdə böyük hünər və rəşadət göstərdilər. Bu qəhrəmanlıq sayəsində də torpaqlarımız erməni işğalçılarından azad edildi.





Vətən uğrunda vuruşan gizir və əsgərlərlə söhbətdən ürəyimiz dağa döndü.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**